**“Veteranlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Veteranlar haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 16, maddə 213; 1995, № 9, maddə 177, № 14, maddə 241; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 16, № 2, maddə 66; 1999, № 5, maddə 283, № 7, maddə 395; 2001, № 12, maddə 731; 2004, № 4, maddələr 199, 202, № 7, maddə 505; 2005, № 8, maddə 684; 2006, № 4, maddə 315; 2007, № 5, maddə 401, № 11, maddə 1078; 2013, № 3, maddə 221; 2017, № 5, maddə 689, № 6, maddə 1057; 2020, № 7, maddə 826) 3-cü maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müharibə veteranlarının vahid informasiya bazasını yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sistemində müharibə veteranlarının reyestrini elektron formada aparır. Müharibə veteranlarının reyestrinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2021-ci il
№ 296-VIQD